

AY Bəniz Əliyar

### BİLƏSƏN

Eşqə batıb əl-ayağım,
Dada bilmirəm, biləsən...
Hər gün sənə yol gəlirəm,
Çata bilmirəm, biləsən...

Qalxmışam yoxuşlarını,
Yumuşam yağışlarını.
Üstümdən baxışlarını
Ata bilmirəm, biləsən...

Ha yandan girdin ömrümə?
Üstüm bulandı dərd-qəmə.
Gəl, başını qoy sinəmə,
Yata bilmirəm, biləsən.

Günəş çıxmır payızımda,
Əlin üşür ayazımda.
Bir söz qalıb boğazımda,
Uda bilmirəm, biləsən...

### KƏPƏNƏK EŞQİ

Bu necə sevdadır qonub çəmənə?
Qəlbi də qızdırmır gül, çiçək eşqi...
Deyəsən xəbərdən yoxdur xəbəri,
Bitib son baharın kəpənək eşqi.

Daha pərvazlanıb sığallanmayır,
Əlində, ovcunda tel ləçəkləri.
Dəli küləklərin sözünə baxmır,
İnciyib küsəndə gül ləçəkləri.

İndi ümidini üzüb çəməndən,
Güllərə üz tutmur sevənlər daha.
Nə gözlər tab edir, nə də ürəklər,
Ruhu dirəyirlər çəkilən aha.

Ayrı-ayrılıqda kimik, nəçiyik?
İki nəfərlikdir bir eşqin odu.
Könüldən uzaqda yanan bu sevda,
Nə qəlbi isidər, nə də vücudu.

### LAP DƏLİLƏR KİMİ

Bir quş cəh-cəh vura çölün düzündə,
Gözlərim axtara yalın kolları.
Tikəm ürəyimin damarlarından,
Sənin görüşünə çəkən yolları.

Səni son nəfəstək tutam içimdə,
Mən də qəfəs olum düşdüyün cana.
Alam əllərindən bütün dünyanı,
Çaxam o ümidsiz xəyallarına.

Yolları hürküdə gülüşlərimiz,
Diksinib ayıla tər bənövşələr.
Gecə bir nağılla yatıram səni,
Yeni bir şeirlə oyadam səhər.

Sevgi işığından süzülən ətri,
Dodağına səpəm, üzünə səpəm.
Yığam saçlarını ovuclarıma,
Lap dəlilər kimi öpdükcə öpəm.

### KEŞKƏ

Keşkə bir şeir yazasan,
bütün işlərin düzələ...

Alnındakı qırışları
silə, ata, sevinəsən.
O Şeirdən misra-misra
dada-dada sevinəsən.

Yarpaq-yarpaq sola payız,
uça isti əllərindən.
Yenə bu soyuq əllərim
aça isti əllərində...

Ağ vərəqlər yağış ola,
sətirlər üstünə cuma.
Qəmi, kədəri yox edə,
Sevincin keçə hücuma.

Şeirdən bir ev tikəsən,
Şeir ola üstü, damı.
Qızınmağa od olmaya,
yandırasan, yana hamı...

Yazdığın o şeir ilə,
bildirəsən bitdiyini.
Anlayasan yoxluğunu,
anlayasan getdiyini.

### KEÇƏ

Bir sevda düşə başına,
Qanında qaynaya keçə.
Bir qadının qız xəyalı,
Gözündə oynaya keçə.

Bir şimşək olub çaxasan,
Ömrü yandırıb yaxasan.
O qədər durub baxasan,
Gözlərin aynaya keçə.

Hay yox, haraya yetəsən,
Yol yox, itirib gedəsən.
Elə əriyib bitəsən,
Vücudun iynəyə keçə.

Bu həyat həsrətdi elə,
Əzab verər gülə-gülə.
Bir gün gələn ölüm belə,
İçindən göynəyə keçə.

### YALANDIR GÜLÜŞÜN, YALANDIR, QADIN...

Təpədən-dırnağa dərdsən, kədərsən,
Əzabdır ünvanın, ağrıdır adın...
Bu qədər dərd ilə gülmək olarmı?
Yalandır gülüşün, yalandır, qadın...

Az aldat özünü, kimə gərəksən?
Artıq qucağın da soyumuş ocaq.
Necə gülə bilər sönən dodaqlar?
Sənin gülüşünə kim inanacaq?

Yalandır gülüşün, yalandır, qadın...
Aldatma özünü, yazıqsan belə.
Yadına sal görüm sonuncu dəfə,
Nə vaxt sığal qonub ağaran telə?

Gözlərin ağlayır, dodağın gülür,
Qəsd etmə üzünün qırışlarına.
Hətta o yalançı dodaqların da,
Həsrətdi bir kişi baxışlarına.

### GƏLSİN

Allah, heç nə istəmirəm,
Qoy məni ağladan gəlsin.
Bu yolları üzü bəri,
Əy, məni ağladan gəlsin.

Bolluca ver dərdi, qəmi,
Odur yaramın məlhəmi.
Gəl, qapımı, pəncərəmi
Döy, məni ağladan gəlsin.

Yerlərini sər, yol elə,
Fərmanını ver, "ol" elə!
Buludunu bol-bol elə,
Göy, məni ağladan gəlsin.

### QUŞ NƏĞMƏSİ

Yemşanlar qaralır kol budağında,
Cəh-cəh səsi gəlir, yanıqlı, acı...
Bu dünya özünün qəm yatağında,
Bir quş nəğməsinə yox ehtiyacı...

Göbələk mövsümü başlayıb yenə,
Otların başını aldadır xəzan.
Dönürəm o quşun cikkiltisinə,
Qovla indi məni, taleyi yazan.

Dərələr yamyaşıl qalıb hələ də,
Ora rüzgar əsmir, payız qonmayır.
Artıq noyabrdır, yetişib vədə,
Doyur bu xəzanın, gözünü doyur.

Qamışlar göyərir gölün içindən,
Qurumuş göllərə qəm yağır yenə.
Dönür məhəbbətlər quş nəğməsindən,
Qamışdan düzələn tütək səsinə.

### ÖLÜR

Bir qız ölür yuxusunda,
Hər ötən gecə bir ölür.
Son nəfəsi yarpaq kimi,
Saralır, titrəyir, ölür...

Duadı, qarğışdı, ahdı,
Güldü, tikandı, çiçəkdi.
Bu sevgidən doğulmuşdu,
Bu sevgidən öləcəkdi...

Bəs ilk bahar necə oldu?
Bəs arzular hara baxır?
Bir incə kəpənək qədər,
Belə tez ölməzdi axı...

Bir qız ölür yuxusunda,
Gözləri gözündə qalıb.
Şaxta vurub ləçəyini,
Tökülüb izində qalıb.

Sənə açmayıb qəlbini,
Gizli qalıb bu sirr, ölür.
Bir cansız insandı gəzir,
Bir diri qəbirdir, ölür...

Yenə özündən xəbərsiz,
Adın gəzir dodağında.
Yoxluğuna canın verir,
Bir qız ölür yatağında...

Nə qədər adamlar belə,
Ölüb, itib üzü bəri...
Yuyur kipriklər basdırır,
Yuxularda ölənləri.

